**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akademik H.Ə. ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SALEHİ MEHDİ MƏHƏMMƏD OĞLU**

# İRAN İSLAM RESPUBLİKASININ QƏZVİN OSTANI ŞƏHƏRLƏRİNİN İQTİSADİ-COĞRAFİ İNKİŞAF PROBLEMLƏRİ

İxtisas – 54.01.01 – İqtisadi coğrafiya

Coğrafiya elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi
almaq üçün təqdim olunan dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

Dissertasiya işi AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun "Azərbaycanın əhalisi və sosial inkişafı coğrafiyası" şöbəsində yerinə yetirilmişdir

**Elmi rəhbər:** akademik **B.Ə.Budaqov**

**Rəsmi opponentlər**: coğrafiya elmləri doktoru, professor, əməkdar elm xadimi **V.Ə.Əfəndiyev**

texnika elmləri namizədi, **F.Ə.Mirzəyev**

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "İqtisadi coğrafiya və CTM" kafedrası**

Müdafiə "19" aprel 2013-cü il saat $14^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən D01.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

*Ünvan: Az. 1143, Bakı, H.Cavid prospekti 31, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.*

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası, akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar.

Möhürlə təsdiq olunmuş rəyləri iki nüxsədə bu ünvana göndərməyiniz xahiş olunur: Az. 1143, Bakı, H.Cavid prospekti 31, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.

Avtoreferat "18" aprel 2013-cü ildə göndərilmişdir.

**D.01.091 DŞ-nın**
**elmi katibi, coğrafiya**
**üzrə fəlsəfə doktoru:** **Həsənov M.S.**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Hazırda dünyanın bütün regionları və ölkələrini əhatə edən qlobal iqtisadi inteqrasiya prosesləri gedir. Sosializm sisteminin süqutundan sonra əksər inkişaf etmiş ölkələrdə sənayenin sürətli inkişafı müşahidə olunur. Kapitalizm dünyasına daxil olan ölkələrin iqtisadiyyatının yüksək templə artımı, əvvəllər dünya təsərrüfat sistemindən təcrid edilmiş ərazilərin dünyada formalaşmış yeni iqtisadi sistemə qoşulması, mövcud şəhərlərin və onlarda formalaşmış sahələrin yeni sistemə inteqrasiyası ölkələr arasında yeni formada iqtisadi əlaqələrin yaranmasına səbəb olur.

Sosial-iqtisadi inkişaf sürətində olan fərqlər, xüsusilə Yaxın və Orta Şərq ölkələrində regional inkişaf balansının pozulması və əhalinin sayının artımı ilə təsərrüfatın inkişafı və yeni iş yerlərinin yaranması arasında olan kəskin uyğunsuzluq kənd əhalisinin intensiv surətdə şəhərlərə miqrasiyasına səbəb olur. Əhalinin bir neçə şəhərdə toplanması bu prosesləri daha da gücləndirir, paytaxtla digər regionlar arasında qeyri-bərabərliyin artmasına gətirib çıxarır, ətrafların geridə qalması baş verir. Ölkənin müxtəlif regionlarında yerləşən yaşayış məntəqələrinin inkişaf yollarının və təsərrüfatın perspektiv ərazi təşkili istiqamətlərinin müəyyən edilməsi elmi-nəzəri tədqiqatların mühüm vəzifələrindən biridir.

İranda qeyri-bərabər inkişaf, təbii ehtiyatların paylanmasında yaranan uyğunsuzluq nəticəsində regionların iqtisadi inkişaf balansı pozulmuşdur. Uzun illər ərzində aparılan səmərəsiz regional iqtisadi siyasət nəticəsində sənaye potensialı və xidmət obyektləri şəbəkəsinin ərazi təşkilində ciddi qütbləşmələr gedir. İri regional şəhərlərin yerləşdiyi ostanlarda əhalinin kiçik ərazilərdə yüksək səviyyədə təmərküzləşməsi baş verir. Nəticədə istehsal və xidmət sahələrinin də belə mərkəzlərdə inkişafı gedir, kəndlərdən əhalinin şəhərlərə miqrasiyası artır. Bu sahədə problemlərin aradan qaldırılması üçün xüsusi Dövlət Proqramlarının qəbul edilməsi, onun yerinə yetirilməsi prosesində dövlətin rolunun yüksəldilməsi, maliyyə vəsaitlərinin ayrılması, regionların iqtisadi artımında balansın yaradılması zəruridir.

Regionların sosial-iqtisadi və mədəni inkişafında olan uyğunsuzluğun, burada yerləşən şəhərlərin inkişaf problemlərinin tədqiqi, onların aradan qaldırılması yollarının müəyyən edilməsi mühüm vəzifə kimi qarşıda durur. Şəhərlərin inkişafında əhəmiyyətli rol oynayan təbii-coğrafi və sosial-iqtisadi amillərin öyrənilməsi, bu zaman əsas şəhərəmələ gətirən amillərin təsirinin artırılması zəruridir. Şəhərlərin regionlar üzrə

yerləşməsi və inkişaf səviyyəsində olan fərqlərin səbəblərinin tədqiqi ölkədə problemin həlli üçün əsas yollardan biri hesab edilir.

Dissertasiyada İran İslam Respublikasında olan Qəzvin ostanında tarazlaşdırılmış regional inkişafa nail olmaq istiqamətində tədqiqat işləri aparılır. Ostanın şəhərləri demoqrafik inkişafına, ətraf ərazilərə təsirinə, iqtisadi potensialına, əhalisinin sayına, regionlar üzrə paylanmasına görə fərqlənir. Şəhərlərin inkişafında və ərazi üzrə yerləşməsində olan problemlərin öyrənilməsi, onların inkişafının nizamlanması yollarının müəyyən edilməsi dissertasiyanın əsas vəzifələri sırasına daxildir.

Bu mühüm məqsədlərə nail olmaq üçün şəhərlərin hər birinin inkişaf səviyyəsi ayrı-ayrı göstəricilərlə müəyyən olunur. Burada Qəzvin ostanında geri qalmış şəhərlərin sosial-iqtisadi və demoqrafik inkişafı istiqamətində əməli təkliflər işlənib hazırlanmışdır.

**Tədqiqat obyekti.** Dissertasiyanın tədqiqat obyekti İran İR-in şimalında, ölkənin paytaxtı Tehran şəhərindən şimal-qərbdə yerləşən Qəzvin ostanında şəhərlərin müasir iqtisadi, sosial və demoqrafik inkişaf istiqamətləri, onların dinamikası, bu sahədə olan problemlər və onların aradan qaldırılması yollarıdır.

**Dissertasiya işinin predmeti.** Tədqiqat işinin predmeti Qəzvin ostanında şəhərlərin inkişafına təsir göstərən təbii-coğrafi və sosial-iqtisadi amillərin qiymətləndirilməsi, onlardan səmərəli istifadə edilməsi yollarının, şəhərlərin müasir demoqrafik inkişaf vəziyyətinin öyrənilməsi, sosial-iqtisadi və demoqrafik inkişaf xüsusiyyətlərinə görə şəhərlərin təsnifatının aparılması, onların regional ərazi təşkili və inkişafı istiqamətində təkliflərin işlənib hazırlanmasıdır.

**Problemin öyrənilməsi səviyyəsi.** Şəhərlər təsərüfatın ərazi təşkilində, əhalinin məskunlaşmasında, regionların davamlı inkişafında, təbii ehtiyatlardan istifadə edilməsində əhəmiyyətli rol oynayır. Əhalinin sayının sürətlə artması, onların əsas hissəsinin şəhər məntəqələrində cəmlənməsi eyni zamanda problemlərin də yaranmasına səbəb olur. Bu problemlər arasında ekoloji, sosial-demoqrafik, iş yerləri ilə təminat, şəhərlərin ərazicə genişlənməsi, onların regionlar üzrə paylanması daha kəskin xarakter alır. Onların aradan qaldırılması üçün daim elmi-tədqiqat işləri aparılır.

Şəhərlərin sosial-iqtisadi və demoqrafik inkişafı, onların regional yerləşməsi problemlərinin öyrənilməsi sahəsində Azərbaycanda Nadirov A.A., Hacızadə Ə.M., Göyçaylı S.Y., Əfəndiyev V.Ə., Əyyubov N.H., Eminov Z.N., Kərimov R.N., İran İR-də Z.Kərəmətullah, İ.İbrahimzadə,

X.Kələntəri, S.Bərzoyan, N.Sareki, M.Rzazadə, N.D.Qələno, A.Ş.Hüseynabad, S.İslami və başqa alimlər məşğul olmuşdur.

Lakin Qəzvin ostanında şəhərlərin sosial-iqtisadi və demoqrafik inkişaf problemlərinin geniş və hərtərəfli öyrənilməsi istiqamətində hələlik iri miqyaslı tədqiqatlar aparılmamışdır. Şəhərlərin təsnifatı onların inkişaf səviyyəsini müqayisə etməyə, bu sahədə olan problemləri müəyyən etməyə imkan verir. Ona görə dissertasiya bu sahədə tədqiqatlara həsr edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada aparılan tədqiqatların **məqsədi** Qəzvin ostanında şəhərlərin formalaşması və inkişafında olan müasir iqtisadi, sosial və demoqrafik meylləri öyrənmək, demoqrafik inkişafın nizamlanması istiqamətlərini müəyyən etmək, onların təsnifatını aparmaq, regionlarda şəhərlərin inkişafında olan fərqləri təhlil etmək, onların aradan qaldırılması istiqamətində təkliflər işləyib hazırlamaqdır.

Bunun üçün aşağıdakı **vəzifələr** müəyyən edilmişdir:

► Təbii-coğrafi şərait və ehtiyatların təsərüfatın ərazi təşkilində, o cümlədən şəhərlərin inkişafında rolunun öyrənilməsi;

► Şəhərlərin inkişafında tarixi-coğrafi mərhələlərin ayrılması, iqtisadi amillərin və məşğulluq strukturunun onların demoqrafik inkişafına təsirinin müəyyən edilməsi;

► Şəhərlərin iqtisadi, sosial, mədəni, infrastruktur, nəqliyyat və rabitə sahələrinin inkişafına, əhalisinin sayına görə təsnifatının aparılması, bunun əsasında onların inkişafında olan fərqlərin müəyyənləşdirilməsi;

► Qəzvin ostanında şəhərlərin demoqrafik inkişafında olan fərqlərin təhlil edilməsi, onların inkişaf istiqamətlərinin işlənib hazırlanması;

► Şəhərlərin əhalisinin sayına, nahiyələr üzrə yerləşməsinə görə təsnifatının aparılması, onların regionlar üzrə paylanmasında olan fərqlərin aradan qaldırılması istiqamətində tədbirlərin müəyyənləşdirilməsi;

► Ostanın inzibati mərkəzi ilə digər şəhərlərin inkişaf səviyyəsi arasında olan iqtisadi, sosial və demoqrafik fərqlərin aradan qaldırılması yollarının müəyyən edilməsi, bu istiqamətdə təkliflər işlənib hazırlanması;

► Şəhər əhalisi arasında gedən təbii artım və miqrasiya göstəricilərinin dinamikasının öyrənilməsi, onların nizamlanması istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** təsərrüfatın ərazi təşkili, şəhərlərin öyrənilməsi, demoqrafik vəziyyətin nizamlanması sahəsində Avropada, MDB ölkələrində, o cümlədən Azərbaycanda və İran

İR-də alimlər tərəfindən aparılmış elmi-tədqiqat işləri, onların əsərlərində irəli sürülən elmi-nəzəri və praktiki müddəalar təşkil edir.

Tədqiqatın aparılması prosesində Azərbaycanda və İran İR-də şəhərlərin, urbanizasiya proseslərinin və demoqrafik inkişafın öyrənilməsi sahələrində çalışan alimlərin əsərlərindən geniş istifadə edilmişdir.

Tədqiqat zamanı müqayisəli təhlil, tarixi yanaşma, ümumiləşdirmə, modelləşdirmə, statistika, çöl-tədqiqat, qruplaşdırma, kartoqrafik və s. **üsullardan** istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Mövzunun öyrənilməsi prosesində İran İR-də və Qəzvin ostanında Mərkəzi Statistika İdarələrinin məlumatları, qanunvericilik və normativ aktları, qəbul edilmiş Dövlət Proqramları informasiya bazası rolunu oynamışdır. Tədqiqat zamanı ölkədə aparılan siyahıyaalmaların nəticələrindən istifadə edilmiş, ostan üzrə olan məlumatlar ölkədə olan göstəricilərlə müqayisə edilmişdir. Ölkədə şəhərlərin öyrənilməsi istiqamətində aparılan işlər məlumat mənbəyi kimi yararlı olmuşdur.

Eyni zamanda müəllifin bu sahədə uzun illər ərzində apardığı tədqiqatlar, topladığı materiallar, ədəbiyyat mənbələri, ostanın Statistika, Şəhərsalma, MKT, Sosial Müdafiə sahələrində Baş İdarələrinin hesabat materiallarından istifadə edilmişdir.

**Tədqiqat işinin elmi yeniliklərinə aşağıdakılar aiddir:**

► İran İR-in Qəzvin ostanında şəhərlərin iqtisadi, sosial və demoqrafik cəhətdən kompleks tədqiqatı aparılmış, şəhərlərin inkişafının əhəmiyyəti müəyyən edilmişdir;

► Şəhərlərin iqtisadi, sosial, demoqrafik, səhiyyə, infrastrukturun inkişafına görə təsnifatının əsas prinsipləri işlənib hazırlanmışdır;

► Şəhərlərin iqtisadi və sosial-demoqrafik inkişafında təbii-coğrafi və tarixi-iqtisadi amillərin rolu müəyyən edilmiş, onlardan istifadə edilməsinin səmərəli yolları işlənib hazırlanmışdır;

► Ostanda olan şəhərlərin əhalisinin sayına, iqtisadi, sosial, səhiyyə, mədəni, infrastrukturun inkişafına görə təsnifat aparılmış, onların inkişafında olan problemlər müəyyən edilmiş, aradan qaldırılması yolları göstərilmişdir;

► Şəhərlərin təsərrüfat strukturunun yenidən qurulması, bu zaman təbii ehtiyatlardan istifadə edilməsi, onların nahiyələr üzrə yerləşməsində olan fərqlərin aradan qaldırılması istiqamətləri müəyyənləşdirilmişdir.

**Müdafiə olunan müddəalar:**

► Qəzvin ostanında şəhərlərin təsərrüfat strukturu və demoqrafik potensialının formalaşmasında təbii-coğrafi, sosial-iqtisadi və tarixi-coğrafi amillərin rolunun müəyyən edilməsi, onlardan istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri;

► Qəzvin ostanında şəhərlərin müasir demoqrafik vəziyyəti, onun formalaşması, son 30 ildə dinamikasında baş verən meyllər;

► Şəhərlərin iqtisadi, sosial və demoqrafik inkişaf səviyyəsinə görə təsnifatının aparılması, onların inkişaf xüsusiyyətlərinə görə qruplara ayrılması məsələləri;

► Ostanda şəhərlərin inkişafında, ərazi üzrə yerləşməsində olan fərqlərin aradan qaldırılması problemləri, bu istiqamətdə işlənib hazırlanmış təkliflərin verilməsi.

**Dissertasiyanın praktiki əhəmiyyəti.** Dissertasiyanın hazırlanması zamanı alınan nəticələr, eyni zamanda irəli sürülən təklif və tövsiyyələr şəhərlərin təsərrüfat strukturunun gələcəkdə təkmilləşdirilməsi, onların demoqrafik inkişafının nizamlanması zamanı əhəmiyyətlidir və nəzərə alınması zəruri hesab edilir. İşdə şəhərlərin təsnifatı üçün işlənmiş əsas prinsiplər, onun əsasında həyata keçirilmiş qruplaşmalar ölkənin digər şəhərlərinin öyrənilməsi prosesində istifadə edilə bilər.

Dissertasiyada aparılan təhlillər, verilən təkliflər şəhər təsərrüfatının, urbanizasiya prosesinin idarə edilməsi sahəsində kadrlar hazınlanmasında, ali təhsil müəssisələrində istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiyanın hazırlanması prosesində əldə edilmiş nəticələr, verilən təklif və tövsiyyələr, şəhərlərin demoqrafik inkişafının nizamlanması və təsnifatı, problemlərin aradan qaldırılması haqqında verlmiş müddəalar İran İR-də, Azərbaycan Respublikasında və ayrı-ayrı ölkələrdə keçirilmiş konfrans və qurultaylarda dinlənilmişdir. Onlara aşağıdakılar aiddir:

✓ "Qloballaşma və coğrafiya". Bakı, 2012.

Dissertasiyada aparılmış tədqiqatın nəticələrinə dair 10 elmi məqalə və tezis nəşr edilmişdir.

**Dissertasiya işinin quruluşu.** Təqdim olunan dissertasiya işinin həcmi 129 səhifə olmaqla, Girişdən, 4 fəsildən, əldə edilmiş nəticələr və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyada verilmiş 48 cədvəl, 15 xəritə-sxem, 7 şəkil işin əyaniliyinin artırılmasına xidmət edir. Ədəbiyyat siyahısında 94 istifadə edilmiş mənbə vardır.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiq edilən dissertasiyanın mövzusunun aktuallığı əsaslandırılır, tədqiqat işinin obyekti, predmeti, məqsəd və vəzifələri müəyyən edilir, onun nəzəri və metodoloji əsasları, elmi yenilikləri və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın birinci fəsli "**Təsərrüfatın ərazi təşkilinin öyrənilməsinin nəzəri-metodoloji əsaslarının, təbii şərait və ehtiyatların təsərrüfat əhəmiyyətinin**" öyrənilməsinə həsr edilmişdir. Burada əvvəlcə "Şəhərlərin sosial-iqtisadi və demoqrafik inkişafının tədqiqinin nəzəri-metodoloji əsasları" müəyyən edilir.

Dissertasiyada İran İR-də şəhərlərin öyrənilməsi sahəsində olan tədqiqat işləri təıhlil edilir. Onlar arasında Seyfullah İslami ölkədə əhalinin həyat səviyyəsinin müəyyən edilməsi, kənd yerlərinin inkişaf etməsi (1993), Abbas Şakeri Hüseynabad ölkənin ayrı-ayrı regionlarının sosial-iqtisadi inkişafında olan qeyri-bərabərliyin yaranması səbəblərini (1993) öyrənmişlər. Nəzər Dehmorde Qəleno Sistan və Belucistan ostanıda (1993), Məhəmməd Rzazadə Xorasan ostanında şəhərlərin zəif inkişaf etməsinin səbəblərini (1994), Nasir Sareki Kerman ostanında (1995), Səməd Bərzoyan Mazandaran ostanında (1995) şəhərlərin və kəndlərin inkişaf səviyyəsini, regionların və şəhərlərin inkişaf səviyyəsində olan fərqləri müəyyən etmişlər.

Son illərdə ölkədə əhalinin inkişaf indeksi göstəriciləri öyrənilmiş, ostanların inkişafında olan fərqlər müəyyən edilmişdir. Alınmış nəticələrə əsasən Tehran, Qum, İsfahan, Fars, Yəzd, Gilan, Semnan və Mərkəz ostanları yüksək inkişaf səviyyəsində, Zəncan, Həmədan, Kəhkuliyye və Boyarəhməd, Kürdistan, Sistan və Belucistan ostanları aşağı inkişaf səviyyədə olmuşdur.

Xəlil Kələntəri (1996) ölkənin regionlarını mərkəz nəzəriyyəsinə əsasən öyrənmişdir. Mərkəz nəzəriyyəsinə görə regional mərkəzlərin öz ətrafında sosial-iqtisadi imkanları cəmləşdirməsi onların sürətli inkişafına səbəb olmuşdur. Müəllif göstərir ki, iqtisadi inkişaf mərkəzlərindən uzaqlaşdıqca ərazilərin iqtisadi potensialı və artım tempi azalır. Təhlil zamanı o, 17 göstəricidən istifadə etmişdir. İsa İbrahimzadə Sistan və Belucistan ostanında (2000), Kəramətullah Ziyari (2000) Yəzd ostanının kənd məntəqələrində inkişaf səviyyəsini öyrənmişdir.

Birinci fəsildə "**Qəzvin ostanının coğrafi mövqeyi**" və "**Şəhərlərin inkişafında təbii-coğrafi amillərin əhəmiyyəti**" öyrənilir. Qəzvin ostanı İran İR-in mərkəzində, Tehran şəhərindən 150 km şimal-qərbdə yerləşir,

1996-cı ildə (1375) Zəncan ostanından ayrılmışdır. Region $35^{0}24^{/}$ - $36^{0}49^{/}$ şimal enlikləri və $48^{0}44^{/}$ - $50^{0}53^{/}$ şərq uzunluqları arasında, əlverişli İCM-də yerləşir. Ostan şimalda Gilan və Mazandaran, cənubda Mərkəz, qərbdə Zəncan və Həmədan, şərqdə Tehran ostanı ilə həmsərhəddir. Sahəsi 15640 $km^2$ olub İranın ümumi sahəsinin təxminən 1,0 faizini tutur. Ostanda əhalinin sayı 1143,2 min nəfərdir, onların 63,0%-i şəhərlərdə, 37,0%-i kəndlərdə yaşayır. İnzibati-ərazi bölgüsünə əsasən 2006-ci ildə Qəzvin ostanının tərkibində 5 nahiyə, 25 şəhər, 19 qəsəbə və 46 kənd olmuşdur.

Qəzvin ostanı **relyefinə görə** dağlıq və düzənlik sahələrdən ibarətdir. Elburs dağları ostanın şimalında yerləşir. Maksimum hündürlük Siyahlan dağlarında 4175 metrə çatır. Elburs dağlarının cənub yamaclarında Şahrud dərəsi və onun iki qolu olan Taliqan çayı və Alamut çaylarının dərələrində əhalinin məskunlaşması üçün əlverişli şərait vardır. Cənubi Elburs dağlarının yamaclarından axan çaylar Səfidrud çayı hövzəsinə aiddir.

Dissertasiyada göstərilir ki, tədqiqat obyekti **tektonik cəhətdən fəal** zonada yerləşir. 1962-ci ildə Boyin Zəhra (Ms=7,2 bal), Somğabad Toliqanda (Ms=5 bal), 1990-cı ildə Rodbar-Məncildə güclü zəlzələlər olmuşdur.

Qəzvin ostanında olan **mineral-xammal ehtiyatlarına** Qəzvin ətrafında olan silisium, Qəzvinin və Takistanın şimal rayonları, Boyin Zəhranın cənubunda kaolinit və bentonit gil, Azərin rayonunda alunit ehtiyatları aiddir. Boksit ehtiyatları Avəc və Alamut regionlarında müəyyən edilmişdir. Kömür ehtiyatları Qəzvin və Abiyekin şimalında toplanır. Ostanın mineral-tikinti xammallarına Abgərm və Abiyek ətrafında əhəngdaşı, Abgərm yaxınlığında dolomit, Azər Avarı, Avəc, Taliqan və Alamut ətrafında gəc və gips yatağı ehtiyatlarını göstərmək olar. Alamut dərəsində və Aşağı Gərmarud kəndi ətrafındakı göllərdən, Gurab kəndi ətrafında, Abgərm və Avəc bölgəsində yerləşən duz mədənlərindən də xörək duzu alınır. Ostanda Abyekdən Qəzvinin şimalına kimi ərazilərdə barıt ehtiyatları çoxdur.

**İqlim şəraiti** əhalinin məskunlaşması üçün əlverişlidir. Əsasən ilin qış dövrlərində Aralıq dənizi üzərindən qərb hava axınları gəlir. Şimal-qərb tərəfdən əraziyə dəniz hava axınları gəlir. İlin yay dövründə tropik hava kütlələri hakim olur. Ərəbistan yarımadasından isti və quru küləklər, Mərkəzi Avropadan şimal-qərb axınları daxil olur. Mülayim enliklərdən gələn rütubətli axınlar yağıntıların artmasına səbəb olur. Ərazinin mütləq hündürlüyü az olduğuna görə isti və quru iqlim şəraitinə malikdir. Orta aylıq temperaturun ən yüksək qiymətləri avqust (Mordad) ayında 28,5°C-

dir. Orta aylıq temperaturun ən alçaq qiymətləri yanvar (Dey) ayında 0,6°C qeydə alınmışdır. Ostanda illik yağıntıların miqdarı orta hesabla təxminən 330 mm-dir. Onun cənub və cənub-şərq bölgələrində 200 mm, şimal yüksəklikləri arasında 800 mm yağıntı olur. Burada əhalinin məskunlaşdığı əraziləri birləşdirən xətlər boyu düşən yağıntıların miqdarı 300 mm-dir.

Ostanda **axan çayları** Şur və Səfidrud çaylarının hövzələrinə ayırmaq olar. Dağlarda buzlaqların, böyük bulaqların olması Alamut və Taliqan çaylarının yaranmasına, onların birləşməsindən isə daim axan Şahrud çayının əmələ gəlməsinə səbəb olur. Bunlarla yanaşı ostanın şimalı və cənubu arasında bir neçə çaylar yaranmışdır. Onlardan Qəzvin düzənliyinin şimal hissəsində axan Əbhər çayı, Xər çayı, Hacı Ərəb çayı və 30 yaxın böyük və kiçik çaylar əhəmiyyətinə görə fərqlənir.

Qəzvin ostanında olan şəhərlərin inkişafında **tarixi-coğrafi xüsusiyyətlərin** təsiri böyükdür. Səfəvilər dövrünün əvvəllərində isə Qəzvin şəhəri ölkənin paytaxt kimi seçilmişdir. Qacarlar dövründə və müasir mərhələdə isə Tehrana yaxınlığına görə dövlət idarələri və müxtəlif təsərrüfat sahələrinə aid müəssisələrin yerləşdiyi mərkəzlərdən biri kimi mövcuddur.

Dissertasiyada ostanda olan **mədəni-tarixi və təbii-coğrafi turizm mərkəzləri,** onlardan istifadə edilməsinin müasir vəziyyəti öyrənilir. 2001-ci ildə (1380) 780 bina və tarixi abidə ostanın Mədəni İrs Təşkilatının səyi ilə ölkənin milli əsərləri sırasına daxil edilmişdir. Hazırda 497 qədim tarixi mərkəz və keçid turizm mərkəzi kimi istifadə edilə bilər. Relyef xüsusiyyətlərınə və iqliminə görə fərqlənən bu ərazilərdə xüsusi turizm mərkəzləri yaradıla bilər. Avan gölü Alamutun şimalında və Qəzvin şəhərinin 85 kilometrliyində yerləşir. Uçqun mənşəli gölün sahəsi 10 hektardır.

Şəhərlərin **iqtisadi bazasının** öyrənilməsi dissertasiyada xüsusi yer tutur. Qəzvin ostanının 5 sənaye şəhərində 1700-dən çox müəssisənin yerləşməsi buranı ölkənin sənaye mərkəzlərindən birinə çevirmişdir. Ostanda inkişaf etmiş suvarma şəbəkəsi yaradılmış, əkinçilik və bağçılıq sahələri inkişaf etmişdir. Heyvandarlıq sahələri arasında maldarlıq, quşçuluq və balıqçılıq təsərrüfatlarının inkişafı ət istehsalının artımına gətirib çıxarmışdır. Bu sahə yeni emal müəssisələri yaradılması ilə dinamik inkişaf etmişdir. Orta hündürlüyə malik ərazilərdə Qəzvin-Takistan-Boyin Zəhra üçbucağı yerləşir. Kənd təsərrüfatına yararlı torpaqların əsas hissəsi bu bölgədə yerləşir. Bu regionda heyvandarlıq və onun bir sahəsi olan quşçuluq mərkəzləri fəaliyyət göstərir. Ostanın sənaye sahələrində

çalışanların 70%-i Qəzvin rayonunun, 20%-i isə Takistan və Boyin Zəhra rayonlarının payına düşür.

Əhalinin məşğulluğunda ciddi dəyişiklik baş verir. İqtisadi fəal əhalinin sayı 1986-cı ildə 196 min nəfər, 1996-cı ildə 241 min nəfər olmuşdur. Bu dövrdə məşğulluq səviyyəsi (iqtisadi fəal əhalinin ümumi əhalinin sayına faizlə nisbəti) 37,5%-dən 33,2%-ə enmişdir. Azalma təhsilə cəlb edilənlərin sayının artması ilə əlaqədardır. Nəticədə əmək bazarında kadr təminatı azalmışdır. Bu göstəricinin azalması şəhərlərdə (6,2%) kəndlərə (2,3%) nisbətən çoxdur. İşdə onların nahiyələr üzrə dəyişməsi təhlil edilir. Ostanda 1986-1996-cı illərdə 52 min iş yeri yaradılmışdır. Onların əsas hissəsi şəhərlərin (50 min) payına düşür. Bu fərqlər investisiyaların qoyulması mərkəzlərinin göstəricisidir. Eyni zamanda 37 min iş yeri (70%-i) Qəzvin nahiyəsinin payına düşür.

Dissertasiyada ölkədə və Qəzvin ostanında təsərrüfat sahələrinin məhsul istehsalında xüsusi çəkisi və ostanın bu sahədə payı öyrənilir. Göstərilir ki, 2000-ci ildə kənd təsərrüfatı ovçuluq, meşə təsərrüfatı və balıqçılıqla birlikdə ölkədə məhsul istehsalının 11,56%-ni, ostanda 21,79%-ni, sənaye sahələri ölkədə 15,34%-ni, ostanda 30,22%-ni, ticarət sahələri ölkədə 14,86%-ni, ostanda 12,86%-ni, su, işıq və qaz təminatı sahələri müvafiq olaraq 2,14%-ni və 6,94%-ni vermişdir. Qəzvin ostanı ölkədə istehsal edilən ÜMM-in 1,73%-ni, o cümlədən sənaye məhsullarının 3,41%-ni, kənd təsərrüfatı məhsullarının 3,43%-ni, su, işıq və qaz təminatının 5,63%-ni verir.

İkinci fəsildə Qəzvin ostanında “**Şəhərlərin müxtəlif göstəricilərə görə təsnifatı**” aparılır. Bu məqsədlə ilk növbədə “**Şəhərlərin təsnifatının əsas prinsipləri**” müəyyən edilir. Ölkənin ayrı-ayrı regionları təbii-coğrafi şəraitinə, ehtiyatlarına, şəhərlərin sayına, onların iqtisadi və sosial bazasının inkişafına, yerinə yetirdiyi funksiyalara və təsərrüfat strukturuna görə fərqlənir. Regionların və burada olan yaşayış məntəqələrinin ayrılmasının geniş istifadə edilən meyarlarından biri sosial-iqtisadi inkişaf səviyyəsi və ixtisaslaşma istiqamətləridir. Regionların, burada olan şəhərlərin təsnifatı və inkişaf səviyyəsinə görə qruplara ayrılması, onların problemlərini müəyyən etməyə imkan verir. Müxtəif göstəricilərin müqayisə edilməsi əsasında aparılan təsnifat şəhərlərin demoqrafik inkişafında, təsərrüfat strukturunda, əhaliyə göstərilən xidmətlərin növü və səviyyəsində olan fərqləri müəyyən edir. Şəhərlərin inkişaf səviyyəsini müəyyən etməklə bir tərəfdən məntəqələrdə əhalinin yaşayış səviyyəsini öyrənmək, onları

müqayisə etmək olar, digər tərəfdən şəhərlərin müasir sosial-iqtisadi inkişaf vəziyyətini, imkanlarını və problemlərini təhlil etmək mümkündür.

Qəzvin ostanı şəhərlərinin reytinq cədvəlinin hazırlanmasında 7 istiqamətdə 67 göstəricidən istifadə edilmişdir (1-əhali, 2-sosial, 3-iqtisadi, 4-səhiyyə, 5-mədəniyyət, 6-sosial xidmət və infrastruktur obyektləri, 7-nəqliyyat və rabitə). Bu zaman Antropi və Tapsis modellərindən istifadə etməklə reytinq cədvəlləri tərtib edilmişdir. Belə ki, insanların inkişaf indeksinin artımında, şəhərlərin inkişaf etməsində və onların hər birinin reytinq sırasının formalaşmasında bu amillərin payı müəyyən olunmuşdur. Bunun əsasında Qəzvin ostanında olan şəhərlər 5 qrupa ayırmışdır: çox yüksək inkişaf etmiş, yüksək inkişaf etmiş, orta inkişaf səviyyəsində olan, aşağı inkişaf səviyyəsinə malik olan və çox aşağı inkişaf etmiş qruplar.

Dissertasiyada "**Qəzvin ostanında şəhərlərin təsnifatı**" müxtəlif göstəricilərə görə aparılır. Onlara əhalinin sayı, sosial, iqtisadi inkişaf səviyyəsi, səhiyyə xidmətinin inkişafı, infrastruktur, nəqliyyat və rabitə sahələri aiddir. Təsnifat zamanı Antropi əmsalı və Tapsis modelinə əsasən inkişaf əmsalları hesablanmışdır. Aparılmış təhlillər göstərir ki, Qəzvin şəhəri əhalisinin sosial-mədəni və demoqrafik göstəricilərinə görə ən inkişaf etmiş və yüksək potensiala malik, Xakəli şəhəri ən geri qalmış məntəqədir. Sosial inkişaf sahəsində Abgərm və Saqqızabad şəhərləri sıra ilə inkişaf etmiş və zəif potensialı olan şəhərlər kimi müəyyən olunmuşdur. Məişət-mənzil problemlərinin çox olmasına görə böyük şəhərlər bu təsnifatda yüksək yerlər ala bilməmişdir. İqtisadi göstərici əmsalına görə Qəzvin inkişaf etmiş, Avəc ən geridə olan şəhərdir. Ostanın böyük şəhərləri və nahiyələrin inzibati mərkəzləri idarəetmə mövqeyinə və dövlət orqanları cəmləndiyinə görə yüksək mövqedə durmuşlar. Səhiyyə-müalicə xidməti əmsallarının müqayisəsi əsasında Abgərm inkişaf etmiş, Nərcə geri qalmış şəhər kimi ayrılmışdır. Səhiyyə müəssisələrinin fəaliyyəti əhalinin ehtiyaclarından geri qaldığına görə Qəzvin şəhəri bu təsnifatda 18-ci pillədə yerləşir. Mədəniyyət, infrastruktur və rabitə göstəricilərinin təsnifatında da Qəzvin inkişaf etmiş şəhər olmuş, Abgərm, Ziyaabad və Sirdan şəhərləri sıra ilə ən geri qalmış şəhərlər olmuşdur. Ümumilikdə, Qəzvin şəhəri Tapsis ölçüsü ilə 0,8193 əmsal ilə inkişaf etmiş şəhər kimi, Sirdan şəhəri 0,0102 əmsalı ilə ostanın ən geri qalmış şəhəri kimi müəyyən olunmuşdur (**1-ci Xəritə-sxem**).




1-ci Xəritə-sxem. Şəhərlərin ümumi göstəricilərə görə təsnifatı (2006-cı il)

Dissertasiyanın üçüncü fəslində Qəzvin ostanında formalaşmış "**İnsan potensialı ehtiyatları, onların şəhərlərin sosial-iqtisadi inkişafına təsiri**" öyrənilir. Ostanda şəhərlərin "**Demoqrafik inkişaf xüsusiyyətlərinə**" təbii artım və miqrasiyadan asılıdır. Sosial-iqtisadi inkişafı əhalinin sayının dəyişməsinə ciddi təsir göstərir. Qəzvin ostanında əhalinin sayı 2006-cı ildə 1143,2 min nəfər olmuşdur (**2-ci Xəritə-sxem**). Əhalinin sayı 1986-1996-ci illərdə 121,2%, 1996-2006-cı illərdə 118,1% artmışdır. Əhalinin 583869 nəfər kişi (51,1 faiz), 559331 nəfər qadınlardır. Şəhər əhalisinin sayı 777975 nəfər (68,1%), kənd əhalisinin sayı 365203 nəfər olmuşdur. Ostanın şəhərlərində əhalinin artımı 30 il ərzində (1976-2006) 4,75 dəfə, ölkənin şəhərlərində 3,05 dəfə olmuşdur. Təhsil səviyyəsinin artması, qadınların bu prosesdə fəal iştirakı, urbanizasiyanın yüksəlməsi, ölkə əhalisinin arasında sənaye sahələrində çalışanların sayının artması, ailələrin, xüsusilə gənc ailələrin uşaqların sayının az olmasına meyl göstərməsi, səhiyyə xidməti səviyyəsinin artımı və ölüm səviyyəsinin azalması əhalinin sayının artım tempinin aşağı enməsinə səbəb olur. Kəndlərdən iri şəhərlərə əhalinin miqrasiyasını azaltmaq, dövlətin sosial siyasətinə uyğun olaraq, həmçinin yaşayış imkanları və şəraitinin artırılması, əhalinin maddi rifahının yüksəlməsinin təmin edilməsi üçün 1999-2000-ci illərdən başlayaraq əhalisinin sayı çox olan və sosial-iqtisadi inkişaf şəraiti baxımından yüksək səviyyədə duran 13 kənd şəhərə çevrilmişdir. Nəticədə 1996-2006-cı illərdə ostanda şəhərlərin sayı 12-dən 25-ə, urbanizasiya səviyyəsi 57,33%-dən 68,05%-ə yüksəlmiş, şəhər əhalisinin sayı 222,7 min nəfər və ya 40,1% artmışdır (**2-ci Cədvəl**).

Qəzvin ostanında olan şəhərlər müxtəlif kateqoriyalara daxildir. Ostanın müxtəlif nahiyələri arasında şəhərlərin inkişafı və şəhər əhalisinin sayında kəskin fərqlər vardır. Şəhərlər ostan ərazisində qeyri-bərabər yerləşir. Əhalisi 5 min nəfərdən aşağı olan şəhərlərin payı 2006-cı ildə 32,0%, şəhər əhalisinin xüsusi çəkisi 2,85% olmuşdur (**1-ci Cəlvəl**). 1976-cı ildən sonra bu göstəricilər azalmışdır. Çox kiçik şəhərlərin sayının artımına səbəb yeni şəhərlərin yaranmasıdır. Əhalisinin sayı 5-10 min nəfər arasında olan 5 şəhərdə əhalinin 4,32%-i, 10 min nəfərdən 25 min nəfərədək olan 6 şəhərdə 12,58%-i yaşayır. 25-50 min nəfər əhalisi olan şəhərlərdə (Abiyek, İqbaliyyə, Məhəmmədiyyə) əhalinin sayı 2006-cı ildə 138,6 min nəfər yaşamış, onların şəhərlərin əhalisi arasında xüsusi çəkisi 17,44% olmuşdur. Əhalisi 50-100 min nəfər olan 2 şəhərdə (Əlvənd, Takistan) 143,6 min nəfər əhali yaşamışdır. Qrupa daxil olan şəhərlərin payı 8,0%, şəhər əhalisinin payı 18,8% olmuşdur.




2-ci Xəritə-sxem. Qəzvin ostanında şəhər və kənd əhalisinin paylanması, təbii artım göstəriciləri

Cədvəl 1

Qəzvin ostanında şəhərlər və şəhər əhalisinin təsnifatı 1976-2006-cı illər (1355-1385)

| Şəhərlərin təsnifatı, min nəfər | 1976-cı il (1355) | | | | 1986-cı il (1365) | | | | 1996-cı il (1375) | | | | 2006-cı il (1385) | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Şəhərlər | | Şəhər əhalisi | | Şəhərlər | | Şəhər əhalisi | | Şəhərlər | | Şəhər əhalisi | | Şəhərlər | | Şəhər əhalisi | |
| | sayı | faiz | sayı | faiz | sayı | faiz | sayı | faiz | sayı | faiz | sayı | faiz | sayı | faiz | sayı | faiz |
| 5-dən az | 3 | 60,0 | 8107 | 4,84 | 1 | 14,3 | 3465 | 0,95 | 1 | 8,33 | 4211 | 0,76 | 8 | 32,0 | 22846 | 2,85 |
| 5-10 | 0 | 0 | 0 | 0 | 1 | 14,3 | 5475 | 1,50 | 3 | 25,00 | 25963 | 4,68 | 5 | 20,0 | 34202 | 4,32 |
| 10-25 | 1 | 20,0 | 20031 | 11,97 | 2 | 28,6 | 29655 | 8,09 | 2 | 16,66 | 26044 | 4,69 | 6 | 24,0 | 99946 | 12,58 |
| 25-50 | 0 | 0 | 0 | 0 | 2 | 28,6 | 78459 | 21,46 | 3 | 25,00 | 92975 | 16,74 | 3 | 12,0 | 138549 | 17,44 |
| 50-100 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 2 | 16,66 | 114958 | 20,70 | 2 | 8,0 | 143600 | 18,08 |
| 100-250 | 1 | 20,0 | 139258 | 83,19 | 1 | 14,3 | 248591 | 68,00 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| 250-dən çox | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 8,33 | 291117 | 52,43 | 1 | 4,0 | 355338 | 44,73 |
| Cəmi | 5 | 100,0 | 167396 | 100,0 | 7 | 100,0 | 365645 | 100,0 | 12 | 100,00 | 555268 | 100,00 | 25 | 100,0 | 794481 | 100,00 |

Mənbə: Qəzvin ostanının Statistika Bülleteni, 2007 (1386) və müəllifin hesablamaları, 2010 (1389).

Cədvəl 2

Qəzvin ostanında şəhərlərin inzibati ərazilər (nahiyələr) üzrə yerləşməsi, 2008-ci ilin sonu (1387)

| Nahiyələr | Sahəsi, km² | Şəhərlərin sayı | Şəhərlərin adı |
|---|---|---|---|
| Abyek | 1318 | 2 | Xakəli, Abyek |
| Elburs | 416 | 4 | Əlvənd, Məhəmmədiyyə, Bidestan, Şərifiyyə |
| Buyin- Zəhra | 5673 | 7 | Abgərm, Avəc, Ərdaq, Danişfəhan, Şal, Buin-Zəhra, Saqqızabad |
| Takistan | 2591 | 5 | Esfərvin, Xurrəmdəşt, Ziyaabad, Takistan, Nərcə |
| Qəzvin | 5570 | 7 | Müəllem Kelaye, Razmiyan, Sirdan, Kuhin, Qəzvin, Mahmudabad Nemune, İqbaliyyə |
| Cəmi | 15568 | 25 şəhər | |

Mənbə: Qəzvin ostanı Qubernator planlaşdırma yardımçısının hesabatı, 2010 (1389).

Qəzvin şəhəri 1976-1986-cı illərdə əhalisi 100-250 min nəfər olan qrupa, 1996-2006-cı illərdə əhalisi 250 min nəfərdən çox olan şəhərlərin sırasına daxil olmuşdur. Keçən müddət ərzində şəhər əhalisinin sayı davamlı olaraq artsa da onun ostanın şəhər əhalisində payı getdikcə azalmış, 2006-cı ildə 355,3 min nəfər (44,73%) olmuşdur. Qəzvin şəhərində əhalinin payının tədricən azalması digər şəhərlərin sürətli inkişafı və onlarda əhalinin sayının artması ilə əlaqədardır.

Fəslin sonunda **Qəzvin ostanında "Şəhərlərin demoqrafik inkişafının müqayisəsi"** qiymətləndirilir. Demoqrafik göstəricilərə görə şəhərlərin inkişaf səviyyəsini təyin etmək üçün müxtəlif modellərdən istifadə etmək olar. Sinifli fərq məhdudlaşdıran modelindən istifadə etməklə şəhərin mövqeyini təyin etmək olar. Sinifli fərq məhdudlaşdıran model statistik düsturlardan, xüsusilə əhalinin sayının ən çox və ən azından istifadə ilə həyata keçirilmişdir. Nəticə olaraq göstərilir ki, ostanda şəhərlərin sayı, şəhər əhalisi qeyri-stabil və qeyri-bərabər şəkildə artır.

Dissertasiyanın dördüncü fəslində **"Şəhərlərin sosial-iqtisadi inkişaf perspektivləri"** tədqiq edilir. Ostanda "Şəhərlərin inkişafını müəyyən edən təsərrüfat sahələrinin" öyrənilməsi tədqiqatlarda xüsusi yer tutur. Bu fəsildə şəhərlərin iqtisadi, sosial-demoqrafik, mədəni inkişafının müxtəlif göstəriciləri üzrə təhlillər həyata keçirilir. Bu göstəricilərə infrastruktur və müxtəlif təyinatlı qurğular, rabitə, nəqliyyat, müalicə-səhiyyə, mədəniyyət sahələri aiddir. Burada həmçinin iqtisadi, sosial və əhalinin digər göstəriciləri müstəqil amillər və qarşılıqli (mürəkkəb) sahələr kimi şəhərlərin inkişafında rolu baxımından təhlil edilmişdir. Qəzvin ostanı nahiyələrinin təsərrüfat sahələrində olan dəyişiklikləri izah etmək üçün reqressiya modelindən istifadə edilmişdir. SPSS statistika proqramından faydalanaraq, inkişafın ikili çoxreqrssiyalı modelindən istifadə edilmiş, bu zaman Qəzvin ostanı regionlarının təsərrüfat sahələrinin inkişafında həlledici göstəricilər və amillər məlum olmuşdur. Əldə edilən nəticələr göstərir ki, seçilmiş yeddi sahələr arasında dörd sahə - iqtisadiyyat, mədəniyyət, infrastruktur, nəqliyyat və rabitə 99,0% etimad səviyyəsinə malikdir. Qalan üç sahə asılı dəyişənlə zəif əlaqəli (qarışıq göstəricilər) olduğuna görə onların təhlili aparılmır. İqtisadiyyat, mədəniyyət, infrastruktur, nəqliyyat və rabitə sahələrinin standart yayınmada inkişaf əmsalları müvafiq olaraq 0,392; 0,300; 0,220 və 0,217 kimi hesablanmışdır. Əhali, sosial və səhiyyə-müalicə sektorlarında əmsallar kiçik qiymətlər alır və ostanın regionlarının təsərrüfat sahələrinin inkişafının

proqnozlaşdırmasına az təsir göstərir. Mühüm sahələr arasında ikisi - səhiyyə-müalicə, nəqliyyat və rabitə mənfi β dəyərləri almışdır. Bu o deməkdir ki, qeyd olan sektorların standart yayılmasında dəyişiklik müvafiq olaraq - 0,169 və - 0,245 olacaqdır. Bu sahələrin təsiri mənfi və azalan şəkildə olmuşdur. Aparılmış tədqiqatda iqtisadiyyat, mədəniyyət, nəqliyyat, rabitə və infrastruktur sahələrindən, Qəzvin ostanı regionlarının təsərrüfat sahələrinin izahında istifadə olmuşdur. Çunki qalan sahələr uyğun reqressiya modeli kimi əhəmiyyət daşımır, infrastruktur və rabitə sektorları ən çox, mədəniyyət sektorları ən az təsir gostərir. Nəqliyyat və rabitə sektorlarının bilavasitə effektinin olması ilə yanaşı, ən az təsiri ilə fərqlənsə də, iqtisadi sektor ən çox təsir göstərir.

Burada olan **"İrəli sürülən fərziyyələrin tətbiq edilməsi"** bölməsində fərziyyələr və müstəqil dəyişənlərin, asılı dəyişənlərə necə təsir göstərdiyi qiymətləndirilir.

Sonra **"Qəzvin ostanı nahiyələrinin inkişaf perspektivləri"** bölməsində Qəzvin ostanı nahiyələrinin sosial və iqtisadi funksiyaları, ostanın nahiyələrin təsərrüfat sturukturunun formalaşması və ixtisaslaşma istiqaməti əsasında tədqiq edilmişdir. Təsərrüfat sturukturunun formalaşması və ixtisaslaşma istiqaməti 67 göstəricidən ibarətdir. Onlara əhali, sosial, iqtisadi, mədəniyyət, səhiyyə və s. aiddir. İnkişaf göstəricilərinə görə məskunlaşmanın inkişafında ən çox təminatlı olan Qəzvin, ən az təminatlı olan Xakəli şəhəridir, sosial sahədə ən yüksək inkişaf etmiş nahiyə Abgərm, geri qalmış nahiyə Saqqızabad, iqtisadi inkişafa görə Qəzvin, bu sahədə geri qalmış nahiyə Avəcdir. Səhiyyə ən çox Nərcə nahiyəsində, ən az Abgərm nahiyəsində, mədəniyyət ən çox Qəzvin nahiyəsində, ən aşağı səviyyədə Abgərmdə qeydə alınmışdır. Nəqliyyat və rabitə Qəzvin nahiyəsində ən yüksək, Ziyaabadda ən aşağı səviyyədə, infrasturuktur sahələri Qəzvin nahiyəsində ən yüksək, Sirdan nahiyəsində ən alçaq səviyyədə olmuşdur.

Aparılan araşdırmalara görə ən çox inkişaf səviyyəsi Qəzvin şəhərinə aiddir. Onun əmsalı 6,7-yə bərabərdir. Ən az qüvvət 2,6 olmaqla Sirdan şəhərinə aiddir. Ən böyük gerilik əmsalı İqbaliyyə nahiyəsinə aiddir və 7,2-yə bərabərdir. Onun ən az qiyməti Saqqızabad nahiyəsində qeydə alınır ki, kəmiyyəti 3,9-a enir. İmkanlar sahəsində Məhəmədiyə nahiyəsi 7,2 əmsal ilə ən yüksək, Abgərm nahiyəsi 3,1 əmsal ilə ən az əmsala malikdirlər. Esfərvərin nahiyəsinin təhlukə əmsalı 7,2 olmaqla ən yüksək, Sirdan nahiyəsi isə 2,9 olmaqla ən kiçik əmsala malikdir. İnkişaf etmə, geri qalma,

imkan və təhlükə dördlüyü göstəricilərində Sirdan nahiyəsi ən az kəmiyyətə malik olur.

Qəzvin ostanı nahiyələrinin davamlı inkişafı üçün strategiyalar göstərilir. Bu sahədə tədqiqat prosesində beş növ strategiya müəyyən edilmişdir. Onlara sürətli inkişaf etdirmək, rəqabət qazanmaq, mövcud olan mövqeyi qorumaq, müdafiə xarakterli inkişaf və ətraf mühitə nəzarət strategiyası aiddir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

İran İR-in Qəzvin ostanında şəhərlərin sosial-iqtisadi və demoqrafik inkişafının öyrənilməsi əsasında aşağıdakı nəticələri söyləmək olar:

1) Regionda uzun dövrlər ərzində zəngin iqtisadi potensial yaradılmışdır. Paytaxt regionuna yaxınlıq buraya böyük miqdarda investisiya axınına imkan vermişdir. XX əsrin 70-ci illərindən sonra burada Elburs sənaye şəhəri, Kərəc – Qəzvin sənaye rayonu yaranmışdır. Lakin ostanda təsərrüfatın ərazi təşkilində kəskin uyğunsuzluq vardır. Onun potensialının 90%-i Qəzvin-Takistan-Boyin Zəhra rayonunda, o cümlədən 70%-i ostanın inzibati mərkəzinin ətrafında təmərküzləşir.

2) Regionların və burada olan yaşayış məntəqələrinin qruplara ayrılmasının geniş istifadə edilən meyarlarından biri sosial-iqtisadi inkişaf səviyyəsi və ixtisaslaşma istiqamətləridir. Regionların, burada olan şəhərlərin təsnifatı və inkişaf səviyyəsinə görə qruplara ayrılması, onların problemlərini müəyyən etməyə imkan verir. Müxtəif göstəricilərin müqayisə edilməsi əsasında aparılan təsnifat şəhərlərin demoqrafik inkişafında, təsərrüfat strukturunda, əhaliyə göstərilən xidmətlərin növü və səviyyəsində olan fərqləri müəyyən edir.

3) 2006-cı ildə kəndlərdən iri şəhərlərə əhalinin miqrasiyasını azaltmaq üçün dövlətin sosial siyasətinə uyğun olaraq, həmçinin yaşayış imkanları və şəraitinin artırılması və əhalinin maddi rifahının yüksəlməsinin təmin edilməsi üçün əhalisinin sayı çox olan və sosial-iqtisadi inkişaf şəraiti baxımından yüksək səviyyədə duran 13 kənd şəhərə çevrilmişdir. Nəticədə 1996-2006-cı illərdə ostanda şəhərlərin sayı 12-dən 25-ə, urbanizasiya səviyyəsi 57,33%-dən 68,05%-ə yüksəlmiş, şəhər əhalisinin sayı 222,7 min nəfər və ya 40,1% artmışdır.

4) Aparılan araşdırmalara görə ən çox inkişaf səviyyəsi Qəzvin şəhərinə aiddir. Onun əmsalı 6,7-yə bərabərdir. Ən az əmsal 2,6 olmaqla Sirdan şəhərinə aiddir. Ən çox gerilik əmsalı İqbaliyə nahiyəsinə aiddir və

7,2-yə bərabərdir. Onun ən az qiyməti Saqqızabad nahiyəsində qeydə alınır ki, kəmiyyəti 3,9-a enir. İmkanlar sahəsində Məhəmədiyə nahiyəsi 7,2 əmsal ilə ən yüksək, Abgərm nahiyəsi 3,1 əmsal ilə ən az əmsala malikdirlər. Esfərvərin nahiyəsinin təhlukə əmsalı 7,2 olmaqla ən yüksək, Sirdan nahiyəsi isə 2,9 olmaqla ən kiçik əmsala malikdir. İnkişaf etmə, geri qalma, imkan və təhlükə dördlüyü göstəricilərində Sirdan nahiyəsi ən aşağı kəmiyyətə malikdir.

5) İnkişaf göstəricilərinə görə məskunlaşmanın inkişafında ən çox təminatlı olan Qəzvin, ən az təminatlı olan Xakəli şəhəridir. Sosial sahədə ən yüksək inkişaf etmiş nahiyə Abgərm, geri qalmış nahiyə Saqqızabad, iqtisadi inkişafa görə Qəzvin, bu sahədə geri qalmış nahiyə Avəcdir. Səhiyyə ən çox Nərcə nahiyəsində, ən az Abgərm nahiyəsində, mədəniyyət ən çox Qəzvin nahiyəsində, ən aşağı səviyyədə Abgərmdə qeydə alınmışdır. Nəqliyyat və rabitə Qəzvin nahiyəsində ən yüksək, Ziyaabadda ən aşağı səviyyədə, infrasturuktur sahələri Qəzvin nahiyəsində ən yüksək, Sirdan nahiyəsində ən alçaq səviyyədə olmuşdur.

## Dissertasiyanın mövzusu üzrə çap edilmiş elmi əsərlər:

1. M.M.Salehi. İran İslam Respublikasının Qəzvin ostanı şəhərlərinin təsnifatı və inkişaf əmsallarının müəyyən edilməsi. AMEA Xəbərləri // "Yer elmləri" seriyası. Bakı, 2012, № 2. Səh. 84-89.
2. M.M.Salehi. İran İR-in Qəzvin ostaninda demoqrafik inkişafin əsas istiqamətləri. "Qloballaşma və coğrafiya". Azərbaycan Respublikası Coğrafiya Cəmiyyəti BDU filialının əsərləri. Bakı, 2012. Səh. 574-578.
3. M.M.Salehi. İran İR-in Qəzvin ostanında təsərrüfatın ərazi təşkili və əmək ehtiyatlarından istifadə edilməsi problemləri. "Elmi meridian". İctimai elmlər üzrə ictimai jurnal. Ankara, Türkiyə, 2012, №5, səh. 16-25.
4. M.M.Salehi. Qəzvin ostanı şəhərlərinin qeyri-bərabər inkişafının təhlili. Urmiya Universitetinin Xəbərləri. Regional coğrafi mühit. 2012, №1, səh. 153-175. (B.Ə. Budaqovla birlikdə).
5. M.M.Salehi. Qəzvin ostanında kənd bələdiyyəsinin fəaliyyəti və onların kəndlərin inkişafında rolu. Buşəhr Pəyamnur Universitetinin Emi Əsərləri. 2009, №1, səh. 66-74. (doktor Huşəngi Rüstəmi ilə birlikdə).
6. M.M.Salehi. Qəzvin ostanı Ələmut nahiyəsində Marağadan olan əhalinin mədəni-ictimai həyatının öyrənilməsi. İ.Xomeyni adına Qəzvin Beynəlxalq Universiteti. Qəzvin, 2010, №2, səh. 108-118. (Fəlsəfə doktoru Əsgəri Nəsrulla ilə birlikdə).
7. M.M.Salehi. Qəzvin ostanında elektrik enerjisi ilə təminatda külək enerjisindən istifadə edilməsi imkanları və ərazi təşkili. Həmədan Pəyamnur Universitetinin Xəbərləri. İqtisadi-coğrafi tədqiqatlar. 2010, №10, səh. 98-99.
8. M.M.Salehi. Yəzd ostanında turizmin inkişaf göstəriciləri. "Yəzd mədəniyyəti" jurnalı. Yəzd şəhəri. 2008, №34-35, səh. 114-130. (Musəvi Mirnəcəf, f.d. Nikmətniya Həsən və Dərini Məhəmmədvəli ilə birlikdə).
9. M.M.Salehi. İran İslam Respublikasının Qəzvin ostanının sosial-iqtisadi inkişafında təbii-coğrafi şərait və ehtiyatların rolu. ADPU-nun Xəbərləri // "Təbiət elmləri" bölməsi. Bakı, 2012, № 2. Səh. 124-128 (Y.Q. İsmayılov ilə birlikdə).

**Мехти Магомед оглы Салехи**

**Экономическо-географические проблемы развития городов в Казвинской области Иранской ИР**

Диссертация посвящена оценке природно-географических и социально-экономических факторов в развитии городов Казвинской области Иранской ИР, основной направлении экономического, социального и демографического развития городов, их классификации по уровню развития, территориальной организации населения и разработке мер по их дальнейшему развитию.

Работа состоит из введения, четырех глав, выводов и рекомендаций, списка использованной литературы.

В диссертации проведено комплексное экономическое, социальное и демографическое исследование Казвинской области, определены основные принципы классификации городов по экономическому, социальному демографическому развитию, инфраструктуре, здравоохранении, роли природно-географических и историко-экономических факторов в развитии городов, дана их классификация.

В первой главе диссертации изучены теоретические и методологические основы экономического, социального и демографического развития городов, основные факторы их дальнейшего развития, а также их историко-географические особенности.

Вторая глава посвящена классификации городов по основным показателям (экономическому, социальному, культурному, по развитию инфраструктуры).

В третьей главе исследованы демографическое развитие городов Казвинской области, естественный прирост и динамика численности населения. Здесь основное место занимает исследование городов, основные этапы их развития.

В четвертой главе анализированы перспективы развития городов, даны рекомендации для совершенствования городского расселения.

По теме диссертации опубликовано 10 работы.

**Mehdi Muhammad Salehi**

## Economic and geographical problems of development of cities in province of Gazvin of Iran IR

The dissertation is devoted to evaluation of natural-geographic and socioeconomic factors that influences on cities' development in province of Gazvin of Iran Islamic Republic. The main directions of economic, social and demographic development of cities, classification of cities for development level, territorial organization of human distribution as well as preparation of arrangements on further development are also reviewed in the scientific work.

The dissertation is composed of introduction, four chapters, conclusions and recommendations as well as list of used literature. Complex economic, social, and demographic researches on province of Gazvin were carried in the scientific work. Main principles of classification on basis of economic and socio-demographic development as well as infrastructure, health care, roles of natural-geographic and historical-economic factors in development of cities are defined. Classification of cities is given.

The first chapter is devoted to theoretical and methodological studying of economic, social and demographic development of cities as well as main factors of further development. The chapter also deals with historical and geographical peculiarities of the studied cities.

The second chapter is devoted to classification of cities by main indicators of economy, social and cultural development, and also infrastructure.

Demographic development of cities of province of Gazvin as well as natural increase and dynamics of population number are studied in the third chapter. The main studied issue in this part of the dissertation is related to cities and stages of their development.

Perspectives of the development of cities are analyzed in the fourth chapter. Recommendations on improvement of distribution of cities are given.

Ten scientific works have been published on the theme of dissertation.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ГЕОГРАФИИ им. акад. Г.А. АЛИЕВА**

*На правах рукописи*

**МЕХТИ САЛЕХИ МАГОМЕД ОГЛЫ**

# ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКИЕ ПРОБЛЕМЫ РАЗВИТИЯ ГОРОДОВ В КАЗВИНСКОЙ ОБЛАСТИ ИРАНСКОЙ ИСЛАМСКОЙ РЕСПУБЛИКИ

Специальность: 54.01.01 – Экономическая география

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по географическим наукам

**БАКУ - 2013**